

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 37 (20.938)

26 fevral 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə gəlmişdir.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

* * *

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıtda "Azərsun Sənaye Parkı"nın nəzdində yaradılan Azərbaycan Kağız və Karton İstehsalat Kombinatının, Azərsun Sənaye Parkı"nın nəzdində yaradılan Sumqayıt Yağ Fabrikinin, Mis Emalı Zavodunun açılışlarında iştirak etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Sumqayıtdakı Nəsimi adına Mədəniyyət və İstirahət Parkında görülən irimiqyaslı abadlıq və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevə məlumat verildi ki, 2011-ci ildən başlayaraq davam etdirilən işlər nəticəsində parkın 100 hektardan çox olan ərazisində əhalinin istirahətinin təmin olunması məqsədilə geniş tikinti işləri aparılmışdır.

Dövlətimizin başçısına Bakı-Quba avtomagistralından şəhərin Koroğlu küçəsinədək yolun genişləndirilməsi planı ilə bağlı məlumat verildi. Bundan əlavə, Sumqayıtda inşa ediləcək "Yaşıl teatr"ın layihəsi təqdim olundu. Bildirildi ki, şəhərdə həyata keçiriləcək abadlıq və yenidənqurma işləri sırasında Nəsimi parkında sahilboyu yolun çəkilməsi də planlaşdırılır.

Prezident İlham Əliyev 20 Yanvar və Xocalı faciələrinə həsr olunan abidələrin layihəsinə də baxdı.

# Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş tədbirlər keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Tibb Kollecində "Xocalı faciəsi insanlığa qarşı cinayət – soyqırımı aktıdır" mövzusunda tədbir keçirib.***

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərlinin, təşkilatın Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayevanın, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi müəssisədənkənar ərazi ilk partiya təşkilatının sədri Ramil Məmmədxanovun çıxışları olub.

Çıxışlarda bildirilib ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xocalı soyqırımının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətində deyildiyi kimi: ***"Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu"***.

Vurğulanıb ki, 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduğunu nümayiş etdirir. XX əsrin faciəsi olan Xocalı soyqırımı cinayətkar erməni siyasətinin nəticəsidir.

* * *

"Xocalıda törədilən vəhşilik, uşaq və qadın qətlləri özünü beynəlxalq ictimaiyyətə "məzlum" xalq kimi tanıtdırmağa çalışan erməni millətçilərinin terrorçu sifətini və onların azərbaycanlılara, türklərə qarşı soyqırımı siyasətini açıq-aşkar göstərməkdədir". Bu fikirləri Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının Xocalı faciəsinin 22-ci ildönümü münasibətilə keçirdiyi "Bəşər tarixinin ən dəhşətli və qanlı faciəsi – Xocalı soyqırımı" adlı tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov səsləndirib. Bildirilib ki, Xocalı soyqırımı mahiyyətcə xalqımıza qarşı həyata keçirilən erməni təcavüzünün davamı və tərkib hissəsidir. 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə erməni şovinistlərinin məkrli işğal və ilhaq siyasəti nəticəsində həyata keçirilən sistemli deportasiya və genosid siyasəti 1988-1989-cu illərdə özünün ən yüksək nöqtəsinə çatmış, nəticədə, bu gün Ermənistan adlanan, əslində isə əzəli Azərbaycan torpaqlarında bir nəfər də olsun, soydaşımız qalmamışdır.

Yeni Azərbaycan Partiyasının banisi, görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisi 24 fevral 1994-cü il tarixdə Xocalı soyqırımı haqqında qərar qəbul etmişdir. Həmin qərarda hər il fevral ayının 26-nın "Xocalı Soyqırımı Günü" kimi qeyd olunması, bu barədə beynəlxalq təşkilatlara məlumatlar verilməsi nəzərdə tutulmaqla yanaşı, bütün dünya azərbaycanlılarına müraciət qəbul edilmişdir.

Ulu öndərimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında XX əsrdə xalqımıza qarşı yönəldilmiş soyqırımı siyasətinin mahiyyəti əsaslı tarixi faktlarla açıqlanmış, qanlı faciələri törədənlərin ədalət məhkəməsi qarşısında cavab verəcəkləri inamı həmin sənəddə öz əksini tapmışdır.

Sonra çıxışlar olmuşdur.

Sonda şagirdlərin ifasında Xocalı soyqırımına həsr edilmiş şeirlər bədii qiraət olunmuşdur.

* * *

***Şahbuz Rayon Gənclər və İdman İdarəsinin və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 22-ci ildönümü münasibətilə tədbir keçirilmişdir.***

Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Şahbuz Rayon Gənclər və İdman İdarəsinin rəisi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Vüqar Muradov çıxış edərək bildirmişdir ki, Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifəsidir. Faciənin törədilməsində əsas məqsəd torpaqlarımızı ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda apardığı mübarizə əzmini qırmaq idi. Lakin xalqımızın qəhrəman oğul və qızları erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə mərdliklə mübarizə aparmış, qəhrəmanlıq tariximizə şanlı səhifələr yazmışlar.



Erməni hərbi birləşmələrinin heç bir çərçivəyə sığmayan vəhşi əməlləri nəticəsində qocalara, qadınlara və uşaqlara rəhm edilməmiş, əhali etnik təmizlənməyə məruz qalmışdır. Bütövlükdə, Azərbaycan xalqının məhvinə yönəldilmiş Xocalı soyqırımı dünya ölkələrində böyük əks-səda doğurmuş, onu eşidən hər kəsdə dərin hüzn və kədər oyatmışdır. Vurğulanmışdır ki, Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsi yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra mümkün olmuşdur. Bu gün Azərbaycan Respublikasının apardığı xarici siyasət nəticəsində dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir, faciənin əsl səbəbləri haqqında dünya ictimaiyyətinə ətraflı məlumatlar verilir.

Sonra tədbir iştirakçıları Xocalı faciəsinə həsr olunmuş "Məhv edilmiş şəhər" filminə baxmışlar.



***Fevralın 25-də Naxçıvan Müəllimlər İnstitutunda Xocalı faciəsinin 22-ci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilmişdir.***

Konfransı giriş sözü ilə açan institutun rektoru, professor Oruc Həsənli qeyd etmişdir ki, 1992-ci il fevral ayının 26-da erməni hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirmişlər. Qətliama qədər əhalinin bir qismi şəhərdən çıxarılsa da, qalan 3000-ə yaxın insanın 613 nəfəri öldürülmüş, 8 ailə tamamilə məhv edilmişdir. Öldürülənlər içərisində 106 nəfəri qadın, 63 nəfəri azyaşlı uşaq, 70 nəfəri isə qoca olmuşdur.

Xalqımızın tarixinə ən dəhşətli faciə kimi daxil olan Xocalı qətliamı haqqında ulu öndər Heydər Əliyev demişdir: ***"Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağılasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir"***. Bu gün dövlətimizin məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, dünyanın bir çox aparıcı dövlətləri Xocalı soyqırımını tanıyır. Lakin bununla arxayınlaşmaq olmaz. Dünyanın bütün ölkələrinin diqqətini bu faciəyə yönəldərək haqq səsimizi bütün sülhsevər ölkələrə çatdırmalıyıq. Çünki dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər.

"Xocalı soyqırımı XX yüzilin dəhşətli cinayətlərindən biridir" mövzusunda məruzə ilə çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarlı bildirmişdir ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalmışdır. Xocalı soyqırımı erməni şovinistlərinin həyata keçirdikləri vandalizmin davamı idi.

Qeyd olunmuşdur ki, Xocalıda törədilən cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi cinayəti soyqırımı hadisəsi kimi beynəlxalq aləmdə siyasi-hüquqi qiymətini almalı və günahkarlar – Seyran Ohanyan, Serj Sarkisyan, Robert Köçəryan kimi canilər beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər. Dünya bilməlidir ki, bu cinayət təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bəşəriyyətə, insanlığa qarşı yönəldilmişdir. Ermənistan dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi bu hərbi cinayətə – Xocalı soyqırımına siyasi-hüquqi qiymət verməlidir.

Sonra institutun Tələbə Gənclər Təşkilatının sədri Qəmər Rəhimovanın çıxışı olmuşdur.

Tədbirin sonunda tələbələr Xocalı soyqırımına həsr edilmiş şeirlər söyləmişlər.

## Bir dərs saatı Xocalı soyqırımına həsr edilib

Dünən muxtar respublikamızın ali, orta ixtisas və ümumtəhsil məktəblərində, Heydər Əliyev adına Hərbi Liseydə Xocalı soyqırımına həsr edilmiş bir dərs saatında həmin qanlı faciə bir daha xatırlanmışdır. Bu barədə tələbə, kursant və şagirdlərə ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Xocalı soyqırımı xalqımıza qarşı bir neçə əsr əvvəl başlanan və həyata keçirilən erməni təcavüzünün davamı və tərkib hissəsidir. Həmin faciənin törədilməsi ilə yüzlərlə soydaşımız qətlə yetirilmiş, işgəncələrə məruz qalmışdır. Xocalının qəhrəman və fədakar sakinləri düşmən qarşısında mənən sınmamış, sonadək vuruşaraq Vətənə sədaqət nümunəsi, rəşadət və igidlik göstərmişlər.

Dərslərdə Xocalı soyqırımına hüquqi-siyasi qiymətin verilməsindən də ətraflı bəhs edilmiş, bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərin əhəmiyyəti vurğulanmışdır.

**Xəbərlər şöbəsi**

**Ulu öndər Heydər ƏLİYEV:** ***Xocalı faciəsi xalqımızın, millətimizin tarixində qara bir səhifədir, xalqımızın faciəsidir. Eyni zamanda bu facià xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların xatirəsi heç vaxt unudulmayacaqdır. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.***

***Azərbaycan xalqı son 200 il ərzində erməni millətçi şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Həmvətənlərimiz tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Qarabağın dilbər guşələrindən biri olan Xocalı ötən əsrin əvvəllərində də erməni daşnakları tərəfindən yandırılıb, viran edilmişdi. Amma 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən soyqırımının nəticələri daha ağılasığmaz, daha dəhşətli oldu. Öz miqyasına görə Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlıq və bəşəriyyət əleyhinə yönəlmiş ən ağır cinayətlərdən biridir.***

# Xocalı soyqırımı insanlıq əleyhinə törədilmiş ağır cinayətdir

Qarabağ silsiləsinin ətəyində yerləşən Xocalı şəhəri şimaldan və şimal-qərbdən Kəlbəcər, Ağdam, cənubdan və cənub-şərqdən Şuşa, Xocavənd və Laçınla həmsərhəddir. Azərbaycanın çox qədim yaşayış məskəni olan bu ərazi 1905, 1906, 1917, 1918-ci illərdə dəfələrlə erməni quldurları tərəfindən yandırılaraq dağıdılmışdır.

Xocalı soyqırımına qədər də ermənilər azərbaycanlılara qarşı bir sıra qanlı əməliyyatlar həyata keçirmişdilər. Məsələn, 1988-ci ilin fevralında ermənilər Sumqayıt hadisəsini törətmişdilər. Həmin ilin payızında əzəli Azərbaycan torpağı olan indiki Ermənistanda yaşayan bütün azərbaycanlılar işgəncə ilə qovulmuş, xeyli insan məhv edilmişdi. Beləliklə, Xocalı soyqırımına yol açan xəyanətlər bir-birinə bağlanaraq uzanmaqda idi.

1990-cı ilin yanvarında Bakıda faciə törədilmiş, dinc əhali qətlə yetirilmiş, respublikamızın paytaxtı vəhşicəsinə gülləbaran edilmişdi. Sonra Azərbaycan torpaqlarının ermənilər tərəfindən kənd-kənd, rayon-rayon işğalına başlanmışdı. Xocalıdan öncə ətraf kəndlər ermənilər tərəfindən dağıdılır, yandırılırdı. Cəmilli, Meşəli, Quşçular, Qarabağlı kəndləri yandırılmış, əhalisi qətlə yetirilmişdi.

Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı zamanı əsas hədəflərdən biri də Xocalı olmuşdur. Ciddi strateji əhəmiyyət daşıyan Xocalı faktiki olaraq ermənilərin yolu üstündə böyük bir maneə idi. Xocalı öz coğrafi mövqeyi ilə Dağlıq Qarabağda həm magistral yolun, həm də dəmir yolunun üstündə yerləşirdi. Dəmir yolu Xocalının içindən keçirdi, hava limanı da burada idi. Ona görə də ermənilər hər vəchlə Xocalı əhalisini didərgin salmağa, məhv etməyə və bu ərazini ələ keçirməyə çalışırdılar. Onlar Xocalı şəhərini hədəfə almaqla Qarabağın dağlıq hissəsində strateji əhəmiyyətli maneəni aradan qaldırmaq istəyirdilər. İkinci səbəb Xocalının tarixən azərbaycanlılara məxsus olduğunu sübut edən qədim tarixi abidələrlə zəngin olması idi. Xocalı o yaşayış məskəni idi ki, Azərbaycan tarixinin qədim dövrlərdən müasir dövrə qədərki mərhələsini özündə əks etdirirdi. Tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşən zəngin mədəniyyət məhz burada təşəkkül tapmışdı. Bu ərazi siklopları, kurqanları və digər abidələri ilə Azərbaycanın qədim tarixini yaşadırdı. Deməli, məqsəd həm də azərbaycanlılara məxsus bu mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal edilən kimi onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı xüsusi texnika ilə darmadağın edilmişdir. Ərazisi ən qədim memarlıq və ilk mədəniyyət abidələri ilə zəngin olan Xocalıda XIV əsrə aid türbə, 1356-1357-ci illərdə tikilmiş dairəvi türbə, Kərkicahan qəsəbəsi, Kosalar, Cəmilli və Meşəli kəndlərindəki qədim qəbiristanlıqlar, XIV əsrə aid olan Xocalı məqbərəsi və Xocalı Məbəd Yeri dağıdılmışdı.

...Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsildiyindən yeganə nəqliyyat vasitəsi olaraq vertolyotdan istifadə edilirdi. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun ermənilər tərəfindən vurulması və vertolyotdakı 40 nəfərin həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilmirdi. Şəhər ancaq əhalinin və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi yerli özünümüdafiə dəstəsindən və milisdən təşkil edilmişdi.

Fevralın ortalarından başlayaraq Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayı 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etdi, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirdi. Xocalı soyqırımı zamanı 613 nəfərin – 106 qadın, 63 azyaşlı uşaq, 70 qocanın həyatına son qoyulmuş, 487 dinc sakin ağır yaralanaraq şikəst olmuş, 1275 nəfər əsir və girov götürülmüşdü. İtkin düşmüş 150 nəfərin taleyi indiyədək məlum deyil. Kütləvi qırğın həyata keçirilərkən 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərinin birini itirmiş, mülki əhali görünməmiş vəhşiliklə qətlə yetirilmiş, əsir və girov götürülənlərə amansız işgəncələr verilmişdi.

Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əskəran istiqamətindən şəhərdən çıxmağa məcbur olmuşdur. Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və gülləbaran edilmişdir. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əskəran-Naxçıvanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

Xocalı soyqırımından sonra, 1992-ci il martın 1-3-də 200-ə yaxın azərbaycanlı əsir ermənilər tərəfindən dəhşətli şəkildə qətlə yetirilmişdir. Xocalı qətliamının icraçılarından biri olan David Xeyreyan "Xaç naminə" kitabında etiraf etmişdir ki, "fevralın 26-da meyitləri daşıyıb Daşbulaq yaxınlığındakı bataqlığa tökdülər və cəsədlərdən keçid körpü düzəltdilər. Mən ölülərin üzərindən keçməyə qorxurdum. Tərəddüd etdiyimi görən polkovnik Ohanyan mənə dedi: "Qorxma, ürəklə keç! Bu hal müharibənin qanunlarından biridir". Mən qana bulaşmış 9-11 yaşlı uşağın və digər meyitlərin üzərindən adlayıb bataqlığı keçdim... Ayaqlarım və fotokameram qana batmışdı".

Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına görə, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit məhkəmə-tibbi ekspertizadan keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Soyqırımı aktı zamanı Xocalıda istifadəsi qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bu faktlar da Ermənistanın Cenevrə Konvensiyasının protokollarını pozaraq dinc sakinlərə qarşı soyqırımı həyata keçirdiyini bir daha təsdiqləyir.

Xocalı hadisələrinin şahidi olmuş rus zabiti, polkovnik V.R.Soveleyev hadisə ilə əlaqədar hazırladığı arayışda yazırdı ki, "insanların güllədən keçirilmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Yazdığımız məxfi arayışı Kremlə və Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinə göndərdim və "oxuyun, görün, biz rus zabitlərinin şərəfi necə ləkələndi", – dedim".

Təəssüf ki, 1993-cü ilə qədər Azərbaycanda Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi istiqamətində heç bir tədbir görülmədi. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə müraciət edərək erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən, bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Ulu öndər Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat $17^{00}$-də ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının tanıdılması istiqamətində bu gün də ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülmüş, xarici dillərdə kitablar nəşr olunmuş, Xocalı soyqırımı müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilmiş, bununla bağlı internet saytları yaradılmışdır. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə "Xocalıya ədalət" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi bu soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılan mühüm addımlardan biridir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınmışdır.

Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radiolarda verilişlər hazırlanır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Xocalı soyqırımının iyirminci ildönümü haqqında" 2012-ci il 17 yanvar tarixli Sərəncamında da Xocalı həqiqətlərinin bütün dünyaya çatdırılması bir vəzifə kimi qarşıya qoyulmuşdur: ***"Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi qiymətini almalıdır"***.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində görülən işlər ardıcıl xarakter daşıyır. Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımına etiraz edənlərin sayı dünyanın hər yerində ildən-ilə artmaqdadır. Artıq Meksika, Pakistan, Kolumbiya, Çexiya, Peru, Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırım kimi tanımış, Rumıniya, Kanada və İordaniya parlamentləri isə bu barədə xüsusi bəyanat qəbul etmişlər. Bu ilin yanvar ayında isə Honduras Milli Konqresi Xocalı soyqırımını tanıyan qərar qəbul etmişdir. Bununla yanaşı, Amerika Birləşmiş Ştatlarının Nyu-Cersi, Nyu-Meksiko, Meyn, Texas, Corciya, Massaçusets, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, Vest Virciniya, Konnektikut və Florida ştatlarının qanunverici orqanları da Xocalı faciəsinin soyqırımı kimi tanınması barədə qərar çıxarmışdır.

***Bu gün Dağlıq Qarabağ probleminin ədalətli həlli uğrunda Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl, prinsipial və qətiyyətli siyasi xətt, Azərbaycan Respublikasının konstruktiv mövqeyi dünya dövlətlərinə yaxşı bəllidir. Problemin sülh və danışıqlar yolu ilə həll olunmasına sadiq qalan Azərbaycan artıq məsələnin hərbi müstəvidə qısa zaman ərzində həlli üçün də Ali Baş Komandanın əmrinə hazır olan müzəffər orduya malikdir. Bu isə Azərbaycanın ərazi bütövlüyünün bərpa ediləcəyi günün uzaqda olmadığını göstərir. Məhz həmin gün ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan bütün şəhidlərin ruhu əbədi sakitliyə qovuşacaqdır! Prezident İlham Əliyevin də dediyi kimi: "Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır".***

**"Şərq qapısı"**

## XX əsrin faciəsi

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında Xocalı faciəsi qurbanlarının xatirəsi anılmışdır. "Əsrin faciəsi" mövzusunda keçirilən tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açmışdır.

Tədbirdə şuranın əməkdaşları Xatirə İbrahimli, Akif Mahmudov, Şahin Qurbanov, Məhsəti Məmmədova və başqaları çıxış etmişlər. Çıxışlarda ulu öndər Heydər Əliyevin ölkəmizə ikinci rəhbərliyi dövründə Xocalı faciəsinə verilən siyasi-hüquqi qiymət xatırlanmış, bu faciənin tanıdılması istiqamətində həyata keçirilən dövlət siyasətindən danışılmışdır.

* * *



***"Xocalı faciəsi dünya ictimaiyyətinə tanıdılmaqla yanaşı, gənc nəslin tarixin bu dərsini unutmaması üçün Xocalı haqqında yazılmış müxtəlif tarixi kitablar, ədəbi əsərlərlə tanışlığı xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə isə kitabxanalarımızın üzərinə böyük vəzifələr düşür".***

Məmməd Sədi Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi Xocalı faciəsinə həsr olunmuş tədbirdə bu fikir səsləndirilib.

Tədbirdə nazirliyin şöbə müdiri Gülbuta Babayeva "Xocalı soyqırımı insanlığa qarşı qətliamdır" mövzusunda məruzə ilə çıxış edib.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının sədr müavini Zahid Cəfərov və "N" hərbi hissənin zabiti Anar Nəbiyev XX əsrin 90-cı illərinin əvvəllərində xalqımıza qarşı ermənilər tərəfindən törədilən qanlı qətliamların miqyasından və Xocalıda günahsız insanlara qarşı törədilən qeyri-insani rəftardan bəhs ediblər.

Sonda tədbir iştirakçıları Xocalı soyqırımına həsr olunmuş kitab, qəzet, jurnal və kataloqların nümayiş etdirildiyi sərgiyə baxıblar.

## Xocalı soyqırımına həsr olunmuş internet aksiyası

***Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Xocalı faciəsinə həsr olunmuş internet aksiyası keçirilmişdir. Aksiyanı giriş sözü ilə universitetin rektoru, professor Saleh Məhərrəmov açmışdır.***



Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının sədri Arzu Abdullayev internet aksiyası haqqında məlumat vermişdir.

Sonra internet aksiyasına başlanılmışdır. Aksiya iştirakçıları mətnlər, fotoşəkillər və slaydlar şəklində xarici universitetlərin elektron poçt ünvanlarına Xocalı faciəsi barədə məlumatlar göndərmişlər. Məlumat üçün bildirək ki, internet aksiyası ərzində Azərbaycan həqiqətləri 100-dən çox ölkənin 300-ə yaxın elektron poçt ünvanlarına çatdırılmışdır.

İnternet aksiyasından sonra universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində Xocalı soyqırımının 22-ci ildönümünə həsr edilmiş konfrans keçirilmişdir.

**Xəbərlər şöbəsi**

*Dünya çox müharibələr görüb. Savaşan tərəflərin haqlı və haqsız olmağından asılı olmayaraq, müharibə dağıntı, ölüm, faciə deməkdir. Ancaq müharibənin də öz qayda-qanunları var. Döyüşən tərəflərdə ölümün də, dağıntının da, aclıq və xəstəliklərin də olması qaçılmazdır. Eyni zamanda müharibədə nifrətin olması labüddür. Və bu nifrət hər iki tərəfin özünəməxsus səbəbləri çərçivəsində formalaşır. Lakin bu gün baş verməsinin 22-ci ili tamam olan Xocalı faciəsi vəhşiliyin son həddi – soyqırımı hadisəsidir.*

# Ordumuz olsaydı...



Tarixdən hamımıza məlumdur ki, istər keçən əsrin əvvəllərində baş verən faciələrin, istərsə də ən yaxın tarixdə törədilmiş Xocalı soyqırımının əsl səbəblərinin kökü Azərbaycan torpaqlarında erməni dövlətinin qurulmasına bağlanır. Yer üzərində, bəlkə də, ikinci bir "millət" yoxdur ki, başqa bir ölkənin tarixi ərazilərində dövlət qursun, sonra həmin ölkənin digər bölgələrinə torpaq iddiasına düşsün. Və bu yolda yaşadığı ölkənin qədim və yerli sakinlərinə qarşı ağlagəlməz vəhşiliyə əl atsın. 1918-ci ilin 31 Mart soyqırımında da, 1992-ci ildə törədilmiş Xocalı soyqırımında da əsas məqsəd Azərbaycan adlı məmləkəti yer üzündən silmək, əhalisini son insanına qədər qırmaq, indiki Ermənistan sərhədlərini "genişləndirməkdən" ibarət idi.

Məlumat üçün onu qeyd edim ki, Xocalı şəhəri strateji mövqeyə malikdir. Qarabağ ərazisində yeganə hava limanı da burada yerləşirdi. Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əskəran-Xankəndi yolunun üzərində yerləşən bu şəhərin işğal olunması ermənilər üçün çox lazım idi. Buna görə də fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər. Hücumdan əvvəl, fevralın 25-i axşam saatlarından şəhər toplardan və ağır zirehli texnikalardan atəşə tutulmuşdur. Nəticədə, şəhərdə yanğınlar baş vermiş və fevralın 26-sı səhər saat 5 radələrində şəhər tamamilə alova bürünmüşdür. Silahsız, əliyalın əhali yaxınlıqdakı Ağdam rayonuna tərəf gedərkən erməni silahlı dəstələri və motoatıcı alayın hərbçiləri tərəfindən gülləbarana məruz qalmışdılar.

İki gün sonra, fevralın 28-də tərkibində yerli jurnalistlərin də olduğu qrup 2 vertolyotla azərbaycanlıların həlak olduğu yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi. Bu vəhşiliklər haqqında xarici mətbuatın yazdıqlarından:

***Faynenşl Tayms qəzeti (London), 9 mart 1992-ci il:*** ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar. Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir.

***Le Mond qəzeti (Paris), 14 mart 1992-ci il:*** Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında ən vəhşi hərəkətlərin nişanəsi olan 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu, reallıqdır.

***İzvestiya (Moskva), 13 mart 1992-ci il: mayor Leonid Kravets:*** Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü.

***Valer aktuel jurnalı (Paris), 14 mart 1992-ci il:*** erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər.

Bəli, erməni silahlı dəstələri və 366-cı alayın şəxsi heyəti Xocalı şəhərində misligörünməmiş vəhşiliklərə imza atmışdılar. Onların hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktlara – Cenevrə Konvensiyasına, Ümumdünya İnsan Haqları Bəyannaməsinə, Vətəndaş və Siyasi Hüquqlar barədə Beynəlxaq Sazişə, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə məhəl qoyulmamasını bir daha təsdiq edir.

Milli tariximizin müxtəlif dövrlərində ölkəmizin ərazi bütövlüyünə qarşı uzanan əllərin əsl mahiyyəti məlum olsa da, hadisələrin geniş çərçivədə törədilməsinin bir səbəbi də həmin dövrlərdə milli ordumuzun olmaması və ya yeni yaranması, vahid mərkəzdən idarə olunmaması kimi faktlarla əlaqədardır. Xatırladaq ki, 1992-ci ildə Xocalıda törədilmiş qanlı hadisələr zamanı şəhəri, əsasən, atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstələri qoruyurdular. Paytaxt Bakı şəhərində başı hakimiyyət davasına qarışmış ordu rəhbərlərinin vahid komandanlıq konsepsiyasının olmaması, özbaşınalıq, komandir vəzifələrinin dost-tanış arasında bölüşdürülməsi prinsipi yaxın bir il ərzində hələ çox torpaqlarımızın işğal edilməsi ilə nəticələnəcəkdi. Və bu proses ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışına qədər davam etdi. Elə buna görə də hakimiyyətə gələndən sonra dahi şəxsiyyətin qarşısında ən çətin, məsuliyyətli və həllivacib iki məsələ dururdu: atəşkəsi təmin etmək və ordunu əsaslı şəkildə yenidən qurmaq. Gərgin proseslərdən sonra – 1994-cü ilin may ayında tərəflər arasında atəşkəs haqqında razılığa gəlindi. Çünki hadisələrin bu cür cərəyan etməsi Azərbaycana müsbət heç nə vəd etmirdi. Bundan sonra ölkəmizdə milli ordu quruculuğuna start verildi. Çox çətin, ancaq həllivacib olan bu sahənin yenidən qurulması ölkəmizi yeni işğal dalğalarından qorudu, silahlı qüvvələrimiz sabitliyin, təhlükəsizliyin qarantına çevrildi. Azərbaycanın xoşbəxt gələcəyini təmin etmək, onun iqtisadi gücünü artırmaq üçün yorulmadan çalışan ulu öndər demişdir: ***"Ordu qurmaq, silahlı qüvvələr yaratmaq böyük bir bina tikmək deyil. Ordu canlı orqanizmdir. Bu, bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ona görə də biz silahlı qüvvələrimizi ilbəil təkmilləşdirməliyik, onun gücünü artırmalıyıq, peşəkarlıq səviyyəsini yüksəltməliyik, təchizatını ilbəil yaxşılaşdırmalıyıq".***

Həmin dövrdən bizi çox qısa zaman ayırsa da, bu gün Azərbaycan həm iqtisadi gücü, həm də müasir ordusu olan bir ölkədir. İndi ölkəmizin hərbi gücü ilə Ermənistan ordusu arasında kəskin uçurum mövcuddur. Eyni zamanda bu uçurum getdikcə dərinləşməkdədir. Azərbaycan Silahlı Qüvvələri indi düşmən ordusundan fərqli olaraq, dünyanın ən müasir texnologiya və hərbi maşınları ilə təchiz edilibdir. Bundan əlavə, respublikamızda hərbi sənayenin həcmi də ilbəil genişlənir. Ölkəmizin hərbi sənaye məhsulları dünyanın müxtəlif ölkələrində təşkil olunan hərbi sərgilərdə nümayiş etdirilir və bu sahədə ixrac potensialı ildənilə artır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi birləşmələrinin maddi-texniki bazası təkmilləşdirilir, hərbi hissələrdə xidmət üçün ən müasir şərait yaradılır. Bütün bunlar hərbi hissələrin döyüş qabiliyyəti və peşəkarlığının artmasına səbəb olur. Ordu quruculuğunda düşmənlərimizi vahiməyə salan növbəti addım isə Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən iki ay bundan əvvəl atıldı. Azərbaycan Prezidenti 2013-cü il dekabrın 18-də Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Fərman imzaladı. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, silahlı qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradıldı. Naxçıvanın təhlükəsizliyinin qorunmasında mühüm rol oynayacaq Əlahiddə Ümumqoşun Ordusu muxtar diyarın təhlükəsizliyinə və ərazi bütövlüyünə edilən istənilən hücumun qarşısını almağa və düşmənə layiqli şəkildə cavab verməyə qadirdir.

**Bəli, bir ölkənin təhlükəsizliyi üçün ordunun nə demək olduğunu indi Azərbaycanda hər kəs yaxşı bilir. O da bəllidir ki, ötən əsrin sonlarında Azərbaycanın hərbi gücünün olmaması və ya çox zəif olması Xocalı soyqırımı kimi faciələrin baş verməsinə, torpaqlarımızın işğal edilməsinə rəvac verdi. Ancaq tarix ədalətsizliyi sevmir. Azərbaycan Silahlı Qüvvələrinin işğal altında qalan torpaqlarımızı azad edəcəyi gün uzaqda deyil. Bu, bizim həm də Vətən qarşısında mənəvi haqqımızdır. Haqqımızı isə ORDUMUZ təmin edəcək!**

✍ **Səbuhi HƏSƏNOV**

## Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının qanunvericiliyin tələblərinə uyğun aparılması sahəsində mövcud vəziyyət müzakirə edilib



***Babək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi yığıncaq keçirib. Yığıncaqda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının qanunvericiliyin tələblərinə uyğun aparılması sahəsində rayondakı mövcud vəziyyət müzakirə edilib.***

Yığıncağı giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq deyib ki, muxtar respublikada, eləcə də Babək rayonunun kənd yaşayış məntəqələrində yaradılan şərait müqabilində hər bir icra nümayəndəsi işinə məsuliyyətlə və vicdanla yanaşmalı, öz vəzifəsindən sui-istifadənin qəbuledilməz hal olduğunu anlamalı və ona verilən səlahiyyətlərdən qanunun verdiyi imkanlar daxilində istifadə etməlidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının qanunvericiliyin tələblərinə uyğun aparılması ilə bağlı mövcud vəziyyəti öyrənmək məqsədilə mütəmadi olaraq nazirlik tərəfindən rayon İcra Hakimiyyəti ilə birlikdə yoxlamalar həyata keçirilib, maarifləndirmə işləri aparılıb. Ancaq görülən işlərə rəğmən, rayonun bəzi inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində nöqsanlar qalmaqdadır. Belə ki, Vayxır, Şıxmahmud və Məmmədrza Dizə kəndlərinin inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri kargüzarlıq sahəsində fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun təşkil etməyərək nöqsanlara yol veriblər. Bu nöqsanlar qısa zaman ərzində aradan qaldırılmalı, səbəblər araşdırılmalı və onların bir daha təkrar olunmaması üçün lazımı tədbirlər görülməlidir. Hər bir icra nümayəndəsi fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir.

Qeyd edilib ki, Qeydiyyat Şöbəsinin rəisi icra nümayəndələri ilə bağlı işini qanunvericiliyin tələbləri səviyyəsində təşkil etməli, hər bir icra nümayəndəsi işinə məsuliyyətlə yanaşmalı, fəaliyyətində dönüş yaratmalıdır. Rayonun Nehrəm, Cəhri, Qahab və Sirab kəndlərinin icra nümayəndəliklərinin kargüzarlıq sahəsindəki işi qənaətbəxş sayıla bilər. Xüsusilə də nikah qeydiyyatı zamanı müraciət etmiş şəxslərin iştirakı təmin edilməlidir. Gələcəkdə qanun pozuntusuna yol vermiş icra nümayəndələri haqqında müvafiq cəza tədbirləri görüləcəkdir.

Tədbirə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev yekun vurub.

✍ **Səbuhi HÜSEYNOV**

***Fevralın 25-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Xocalı faciəsinin 22-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.***

## Vətənpərvərlik Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaqdır



Gənclərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onlara dövlətçiliyə sədaqət ruhunun aşılanması məqsədilə təşkil edilmiş tədbirdə muxtar respublikamızın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, "N" hərbi hissənin əsgərləri iştirak etmişlər. Tədbirdə "Müasir gənclərin hərbi vətənpərvərlik işinin gücləndirilməsi" mövzusunda Əlahiddə Ümumqoşun Ordusunun zabiti Mirqiyas Rüstəmov, "Vətənpərvər gənclər yetişdirmək ən önəmli vəzifələrdəndir" mövzusunda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin aparıcı məsləhətçisi İlahə Haqverdiyeva çıxış edərək ölkəmizdə, eyni zamanda muxtar respublikamızda gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində həyata keçirilən tədbirlərdən danışmışlar. Qeyd olunmuşdur ki, vətənpərvərlik tərbiyəsi gənc nəslin mənsub olduğu milli dəyərlərə, tarixi ənənələrə bağlılığında təzahür edir. Vətənin tarixi keçmişini dərindən bilmək, onun milli-mənəvi dəyərlərini, adət-ənənələrini öyrənmək, maddi və mənəvi sərvətlərini qorumaq vətənpərvər insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdəndir. Vətənpərvərlik tərbiyəsi hər bir insanda öz Vətəninə sevgi, məhəbbət hissinin, hər an öz Vətəninin, öz xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşdırılması deməkdir.

Sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş "Mübarizlik zirvəsi" adlı sənədli film nümayiş etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Azərbaycan xalqının tarixinə nəzər salarkən aydın olur ki, tariximizin müxtəlif dövrlərində ərazimiz qəsbkar dövlətlərin və ya xalqların hücumuna məruz qalarkən xalqımız ölkənin müdafiəsinə qalxmış, torpaqlarımızın azadlığı uğrunda vuruşmuş, bu yolda çoxlu şəhidlər vermişdir. Bu, XX yüzilliyin əvvəllərində, 1918-1920-ci illərdə bütün Azərbaycan ərazisi kimi, Naxçıvan bölgəsi erməni təcavüzünə məruz qalarkən də belə olmuşdur.*

# Naxçıvanı erməni işğalından əhalinin qətiyyəti qorudu

Məlum olduğu kimi, I Dünya müharibəsində məğlub olaraq Qafqaz cəbhəsində geri çəkilən Rusiya ordusundan aldıqları döyüş sursatı hesabına güclü şəkildə silahlanan ermənilər Azərbaycanın mərkəzi Bakıda və digər bölgələrində olduğu kimi, Naxçıvanda da qırğınlar törədirdilər. Vəziyyəti ağırlaşdıran amillərdən biri də Andranik Ozanyanın quldur dəstəsinin bölgəyə hücumu idi. Andranikin qoşun hissələri cənubdan Arazı keçərək Culfa bölgəsinin Yaycı, Ordubad bölgəsinin Düylün, Aza, Dizə kəndlərində qırğınlar törətmiş, Naxçıvan şəhərini tutmaq üçün qərbə doğru hərəkət edərkən digər kəndlərdə də çoxlu insan qətlə yetirmişlər. Ona görə də Naxçıvan əhalisi erməni qırğınlarına son qoymaq, onları bölgədən qovmaq, rahat yaşamaq üçün ölüm-dirim savaşına qalxmışdır. Naxçıvanda bir sıra kəndləri qılıncdan keçirən Andranik Nehrəm kəndi üzərinə hücuma keçərkən gözləmədiyi bir müqavimətlə qarşılaşmışdı. Kəndlərinə hücum ediləcəyini əvvəlcədən bilən nehrəmlilər qonşu kəndlərin köməyilə müdafiə hazırlıqları görmüşdülər. Buna görə də nehrəmlilər Hacı Mehdi və Kərbəlayi Muxtar Cəfərzadənin rəhbərliyi ilə 3 günlük döyüşdə Andranikin şiddətli hücumlarını uğurla dəf etmişlər. Müasirlərin xatirələrində qeyd olunur ki, döyüş zamanı Nehrəm əhalisi Andranikin Təzəkənddə toplaşan 300 nəfərlik daşnak silahlı dəstəsi ilə birləşmə cəhdinin qarşısını ala bilmişdir. Tabor komandanı Kərbəlayi Muxtar əlində mauzer, kəhər atın belində məhəllələri gəzmiş, əhalini döyüşə qaldırmış, atəş nöqtələrinə patron, çörək, su çatdırmışdır. Nəticədə, Nehrəmdə məğlubiyyətə uğrayan Andranikin dəstələri geri çəkilməyə məcbur olmuşdular.

Hadisələrin şahidi olan müasirlərin xatirələri, arxiv materialları təsdiq edir ki, Nehrəmdə uğursuzluğa düçar olan Andranikin quldur dəstələri bu dəfə Naxçıvan şəhərini hədəf seçmişdi. Onlar Naxçıvan əhalisindən silahları təhvil verməyi və tərk-silah olmağı tələb etmişlər. Ancaq əhali bu təklifi qəbul etməmiş və özlərindən dəfələrlə güclü olan düşmənlə vuruşmağa hazır olduqlarını bildirmişdir. Şəhərə hücum edən ermənilərlə qanlı döyüş başlanmışdır. 8 (20) iyulda ermənilər məğlubiyyətə uğradılıb geri çəkilməyə məcbur edilmişdir. Naxçıvanda Milli Şuranın sədri Cəfərqulu xan, onun oğlu Kalbalı xan, Rəhim xan, Kamran xan Naxçıvanskilərin, Cabbar ağa Vəzirov və başqalarının səyləri ilə yeni inzibati komitə bərpa olunmuşdur.

Məlumdur ki, Rusiyada fevral burjua inqilabından sonra Naxçıvanda və ətraf yerlərdə Milli komitələrin yaradılmasına başlanmışdı. Qarşısında duran əsas vəzifə milli hərəkata rəhbərlik etmək, bölgəni və əhalini erməni təcavüzündən qorumaq və ermənilərə qarşı mübarizəni təşkil etmək, seçkili və yerli hakimiyyət orqanlarının fəaliyyətini tənzimləmək və sairdən ibarət olan Milli komitələrin təşəbbüsü ilə Naxçıvan şəhərində, Culfada hərbi təşkilatlar və hər biri 200 nəfərdən ibarət olan süvari dəstələr təşkil edilmişdi.

Aparılan işlər nəticəsində qısa müddət ərzində 20-yə qədər könüllülər batalyonu yaradılmışdı. Hər biri 220-500 nəfərdən ibarət olan həmin batalyonların dördü Naxçıvanda, üçü Şərur-Dərələyəzdə, digərləri Vedibasar, Zəngibasar, Qəmərli və Başkənddə (Aralıqda) təşkil olunmuşdu.

Türkiyə I Dünya müharibəsində məğlub olduqdan sonra bağlanan Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq, türk qoşunları Azərbaycan ərazisini, o cümlədən Naxçıvanı tərk etmişdir. Bu zaman Naxçıvanı erməni təcavüzündən qorumaq üçün bir dövlət qurumunun yaradılması zərurəti yaranmışdır.

Bölgənin erməni təcavüzündən müdafiəsini, əhalinin qorunmasını təşkil etmək məqsədilə 3 noyabr 1918-ci ildə Araz-Türk hökuməti yaradılmışdır. Qarşıya qoyulan məqsədə uyğun olaraq, paytaxtı Naxçıvan şəhəri olan bu hökumət bir sıra işlər görmüş, qərarlar qəbul etmişdir. Hökumətin ilk iclaslarının birində Naxçıvanın nüfuzlu şəxsləri bu qərarları qəbul etmişdilər: 1. Məcburi səfərbərlik; 2. Əsgərləri batalyonlara bölmək və kazarmalarda saxlamaq; 3. Hökumət anbarında olan buğdadan əsgərlərin qidalanması üçün 14 min pud verilməsi; 4. Təzə əsgərlərə hökumət tərəfindən geyim və sair əşyanın verilməsi; 5. Əsgərliyə getməyən əhalidən silahları yığaraq silahı olmayan əsgərlərə paylamaq; 6. 20-35 yaşlar arasında kişilərin hamısını əsgərliyə çağırmaq.

Göründüyü kimi, Araz-Türk hökuməti qarşıda duran əsas məqsədin uğurlu həllinə nail olmaq üçün yarandığı andan bu istiqamətdə fəaliyyətə başlamışdır.

Az müddət yaşamasına baxmayaraq, Araz-Türk hökuməti ərazinin erməni işğalından qorunmasında olduqca əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

1919-cu ilin iyun ayında daşnaklar ingilis zabitlərinin köməyi və iştirakı ilə Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşun birləşmələrini darmadağın edərək Naxçıvan ərazisindən kənarlaşdıra bilmişdilər. Həmin ilin iyun ayında Naxçıvan şəhərində və Şərur qəzasında ingilis-erməni təcavüzkarlığına qarşı üsyan baş vermişdir. Üsyan, demək olar ki, bütün Naxçıvan qəzasını bürümüşdür. İngilislərin Naxçıvanda qubernator Varşamyanın başçılığı ilə yaratmış olduğu erməni daşnak hökuməti qovulmuşdur. Həmin ilin iyulunda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutsalar da, yerli hərbi qüvvələr daşnakların hərbi hissələrini buradan qovmuşdular. Məhz bütün bunlara görə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri naxçıvanlıların bu qəhrəmanlığını yüksək qiymətləndirir, hətta parlamentin iclaslarında bunu qeyd edirdilər. Parlamentin 18 avqust 1919-cu il tarixli iclasında bu məsələdən bəhs edən Nəsib bəy Yusifbəyli Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu vurğulamışdı. 22 dekabr 1919-cu ildə parlamentdə çıxış edən Baş nazir N.Yusifbəyli yenidən bu məsələyə qayıdaraq demişdi: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər, onlar həyatlarını... riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..."

Naxçıvan əhalisi böyük dövlətlərin Naxçıvanda ermənilərin xeyrinə həyata keçirmək istədikləri planların iflasa uğramasında fəal iştirak etmişdir. 28 avqust 1919-cu ildə Bakıya gələn Amerika Birləşmiş Ştatları ordusu baş qərargahının polkovniki Vilyam Haskelin Naxçıvana gələn ermənipərəst nümayəndələri Naxçıvanda Amerika general-qubernatorluğu yaratmaq istəyirdilər. 1919-cu il avqust ayının sonlarında Naxçıvana gələn polkovnik Rey Naxçıvan Milli Komitəsinin rəhbəri Cəfərqulu xanla danışıqlar zamanı ABŞ hökumətinin bu fikrini – Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması ideyasını elan etmişdi. Ancaq ABŞ-ın Naxçıvan barədə fikrini bilən Milli Komitə rəhbərləri bu ideyanı qəbul etmədilər. Naxçıvan, Şərur, Sürməli, Vedibasar, Melistan əhalisi adından Əli Səbri Qasımov, Z.Məmmədov, G.Əsgərov və başqaları tərəfindən memorandum (diplomatik sənəd) imzalanaraq ali komissar V.Haskelə təqdim olundu. Əhalinin başlıca tələbi bundan ibarət idi ki, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını heç bir qüvvə doğma Azərbaycandan ayıra bilməz. Memorandumun sonunda belə bir fikir ifadə olunurdu: "Əhali əmindir ki, Azərbaycanın müttəfiqləri Sürməli, Vedibasar, Melistan, Şərur, Dərələyəz, Naxçıvan və Ordubad rayonlarının əhalisinin qanı bahasına aldığı azadlıq hüququna toxunmayacaq".

Buna baxmayaraq, Naxçıvanı və Şəruru bitərəf zona elan etmək, son nəticədə, ermənilərə vermək fikrində olan V.Haskel Naxçıvanda yaradılması nəzərdə tutulan Amerika general-qubernatorluğuna rəhbərlik etmək üçün 24 oktyabr 1919-cu ildə polkovnik Edmond Dellini Naxçıvana göndərmişdir. ABŞ nümayəndəsinin əsl niyyətindən xəbərdar olan Naxçıvanın qabaqcıl adamları xalqın dəstəyi ilə bu planın pozulmasına nail olmuşlar. Həmin vaxt Naxçıvanda təşkil olunan ümumi şəhər yığıncağında əhalinin adından çıxış edən Hacı Həsənəli Qurbanov tərcüməçi vasitəsi ilə Edmond Delliyə demişdi: "Biz ingilis hökumətinin qərarı ilə razılaşmayacağıq. Naxçıvan ölkəsini hər cür təcavüzkarlardan öz qanımızla müdafiə edəcəyik". Ona görə də E.Delli Naxçıvanda general-qubernator kimi deyil, Paris Sülh Konfransının nümayəndəsi kimi işə başlamışdır. Xalqın tələbi qarşısında aciz qalan E.Delli ermənilərin təkliflərinə məhəl qoymamış və Naxçıvana gəlmiş amerikalı zabitləri İrəvana göndərmişdir. Az sonra – 1920-ci ilin yanvarında isə polkovnik E.Delli bütün amerikalı zabitlərlə birlikdə Naxçıvanı tərk etmişdir.

1919-cu il yanvarın 25-də Naxçıvanda demokratik ziyalıların və milli burjuaziyanın təşəbbüsü ilə Cəfərqulu xan başda olmaqla Müsəlman Milli Şurası yaradılmışdır. Milli Şura yarandığı andan Naxçıvanın erməni təcavüzündən qorunması və bölgənin ərazi bütövlüyünün təmin olunması üçün mühüm əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

1919-cu ilin axırlarından 1920-ci ilin iyul ayına kimi ermənilər yenidən fəallaşmış, bir sıra yerləri işğal etmişdilər. 1920-ci il iyulun əvvəllərində Şərur və Sədərək ermənilər tərəfindən işğal olunsa da, A.Şadlinskinin rəhbərlik etdiyi Qırmızı tabor və Naxçıvan polkunun gücü ilə həmin ilin noyabrın axırı, dekabrın əvvəllərində bu ərazilər, həmçinin Ordubad erməni işğalçılarından təmizlənmişdir.

***Bütün bu sadalanan faktlar təsdiq edir ki, Naxçıvan bölgəsinin erməni təcavüzündən xilas edilməsində və Azərbaycanın ərazi bütövlüyünün qorunub-saxlanmasında yerli əhali mühüm rol oynamışdır. Naxçıvan əhalisinin ciddi müqaviməti sayəsində ermənilərin və onları müdafiə edən iri dövlətlərin Naxçıvan bölgəsi ilə əlaqədar işğalçılıq planları pozulmuşdur. Təsadüfi deyildir ki, Ermənistanın Baş naziri O.Kaçaznani 1923-cü ildə etiraf edirdi ki, "Müsəlman Naxçıvanı və Şərurunda, ...müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik".***

**Fəxrəddin SƏFƏRLİ**

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor***

## "Silahlı münaqişələr zamanı uşaqlara qarşı zorakılıq" mövzusunda inşa yazı, şeir və rəsm müsabiqəsi

26 fevral – Xocalı soyqırımı ilə əlaqədar "Silahlı münaqişələr zamanı uşaqlara qarşı zorakılıq" mövzusunda IV muxtar respublika inşa yazı, şeir və rəsm müsabiqəsi keçirilmişdir. Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil olunan tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, Rəssamlar Birliyinin üzvü, sənətşünas Nizami Alıyev, Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev çıxış edərək Xocalı soyqırımından bəhs etmişlər. Bildirilmişdir ki, soyqırımı nəticəsində qətlə yetirilmiş 613 nəfər dinc sakindən 63-ü uşaq olmuş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir.

"Silahlı münaqişələr zamanı uşaqlara qarşı zorakılıq" mövzusunda ümumtəhsil məktəblərinin və məktəbdənkənar müəssisələrin şagirdləri arasında keçirilən müsabiqəyə 10 inşa yazı, 10 şeir və 24 rəsm işi təqdim olunmuşdur. "Silahlı münaqişələr zamanı uşaqlara qarşı zorakılıq" mövzusunda IV muxtar respublika inşa yazı, rəsm və şeir müsabiqəsində müvafiq olaraq birinci yerləri Naxçıvan Qızlar Liseyinin şagirdi Aysu Süleymanova, Ordubad Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvü Kənan Məmmədli, Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin şagirdi İsmayıl Quliyev, ikinci yerləri Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin şagirdi Fatimə Əliyeva, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvü Gözəl Abbasova və Culfa şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Elyar Nəcəfov, Babək rayon Kültəpə kənd tam orta məktəbinin şagirdi Zərifə Səfərəliyeva, üçüncü yerləri Kəngərli rayon Yurdçu kənd tam orta məktəbinin şagirdi Sunay Abdullayeva, Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzinin dərnək üzvü Şahin Məhərrəmli, Sədərək rayon Sədərək kənd 2 nömrəli tam orta məktəbin şagirdləri Cahangir Seyidov və Songül Mahmudova tutmuşlar.

Sonda müsabiqə qaliblərinə təşkilatçılar tərəfindən diplomlar təqdim edilmişdir.

## Rinqin liderləri məlum olub

Ötən həftə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi daha bir turnir başa çatıb. MMA üzrə keçirilən yarışda muxtar respublika idmançıları İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin rinqində öz güclərini sınayıblar. İki gün davam edən muxtar respublika birinciliyi maraqlı anları ilə yadda qalıb. Belə bir turnirə ilk dəfə ev sahibliyi edən Naxçıvanda yarışa maraq olduqca çox olub.

Turnirin reqlamentinə gəlincə, 18 yaşadək gənclər 50, 55, 60 və 65 kiloqram çəki dərəcələrində rinqə çıxıblar. Bu çəkilərdə bütün rəqiblərini məğlub edən Polad Cəlilov, Mətin Ələsov, Elvin Salayev və Abbas Əsgərov ən yüksək pilləyə qalxıblar. Böyüklər arasında keçirilən döyüşlər isə daha kəskin mübarizə ilə yadda qalıb. Səkkiz çəki dərəcəsində Rəhman Quliyev (66 kiloqram), Fuad Nəsirov (68 kiloqram), Əli Muradov (70 kiloqram), Elmar Qasımov (75 kiloqram), Yadigar Budaqov (80 kiloqram), Xəyal Abdullayev (85 kiloqram), Sənan Cabbarov (90 kiloqram) və Elnur Abdullayev (96 kiloqram) hamıdan güclü olduqlarını rinqdə sübut ediblər.

Sonda turnirin qalibləri diplom, medal, kubok və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin kollektivi xidmətin rəisi Fazil Ələkbərova, qayınanası **RÜBABƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli və təşkilatın əməkdaşları YAP Naxçıvan Şəhər Təşkilatı Şurasının üzvü Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Avtomobil Yolları Dövlət Şirkətinin Baş direktoru Bəhruz Əsgərov və şirkətin kollektivi Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollektivi Kəngərli Rayon Rabitə İdarəsinin baş mühəndisi Əmir Babayevə, anası **ALİYƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti

Yaşar və Səadət Əkbərovlara, əzizləri **DİLBƏR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektorluğu və professor-müəllim kollektivi Vəliyevlər ailəsinə, əzizləri **MƏMMƏD VƏLİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektorluğu və professor-müəllim kollektivi iş yoldaşları Çapay Quliyevə, nənəsi **NUBAR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Natəvan Qədimova və məktəbin kollektivi Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tural Əsgərov Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 210**